# BİZİM İSA MÜƏLLİM

**Hüquq elmləri doktoru, professor İsa Paşa oğlu Məmmədov haqqında xatirə yazmaq onun keçmiş tələbələri üçün şərəfli, şərəfli olduğu qədər də çətin bir işdir. O, 25 iyul 1924-cü ildə Tovuz rayonunda anadan olmuşdur.**

İsa müəllim haqqında xatirə yazmaq ona görə şərəflidir ki, İsa müəllimin hər bir tələbəsinin yetişməsində onun böyük rolu və zəhməti olmuşdur. Bu iş ona görə çətindir ki, onun şəxsiyyətinin portret cizgilərini yaratmaq xüsusi bir məsuliyyət tələb edir.

Hüquq fakültəsində mənim və qrup yoldaşlarımın təhsil aldığı dövrdə İsa müəllim cinayət hüququ kafedrasının dosenti vəzifəsində işləyirdi. Lakin sonrakı illərdə İsa müəllim doktorluq dissertasiyasını müdafiə etdi, professor oldu, əvvəllər dekan müavini, daha sonra isə fakültənin dekanı vəzifəsində işlədi. O, eyni zamanda, bir müddət respublika televiziyasının "İnsan və qanun" verilişinin aparıcısı kimi səmərəli fəaliyyət göstərdi və bu dövrdə respublika ictimaiyyəti onu görkəmli alim, ziyalı, vətəndaş mövqeyi olan insan kimi daha yaxşı tanıdı.

İsa müəllim keçmiş tələbələrinin hafizəsində hüquq elmləri sahəsində görkəmli alim, öz üzərində daima çalışan, dərslik və dərs vəsaitlərinin yazılmasında məhsuldarlığı və səmərəliliyi ilə fərqlənən zəhmətkeş tədqiqatçı kimi qalmışdır. O, olduqca səmimi, zahirən zarafatcıl görünməyən, lakin əslində, incə yumor hissinə malik, az danışan, kəskin və dərin fikirlərini qısa sözlərlə ifadə edən böyük və böyük olduğu qədər də sadə bir insan idi. Bu gün onun dünyada yoxluğundan əmələ gələn boşluq açıq-aydın hiss edilməklə, bu, böyük insanın ailə üzvlərinin, qohumlarının, yaxınlarının, iş yoldaşlarının, onu tanıyanların, başlıcası, keçmiş tələbələrinin qəlbini ağrıdır.

Tələbələrini xüsusilə vurğulayıram ki, İsa müəllim hər bir tələbəyə xüsusi qayğı göstərir, heç nədən asılı olmayaraq, tələbələrinin biliyinin qiymətləndirilməsi prosesində obyektivliyi heç zaman pozmurdu.

İsa müəllim çox dəqiq bir insan idi. Zəngin vurulması ilə onun auditoriyaya girməsi bir olurdu və vaxtı bitdikdə zəngi gözləmədən auditoriyanı tərk edirdi. İsa müəllim dərs saatlarından çox səmərəli istifadə edər və dərs saatlarında kənar mövzuların müzakirəsinə yol verməzdi. O, tələbəyə irad tutanda da olduqca qısa sözlər və ifadələrlə istədiyi fikri çatdıra bilərdi. Bəzən hər hansı bir tələbə dərsə gecikdikdə və həmin tələbə dərsdə iştirak etmək üçün icazə istədikdə, dərsdə iştirak etməyə icazə verərək deyərdi:

- Yoldaş tələbə, çox üzr istəyirik, sizi gözləyə bilmədik, mühazirəyə siz olmadan başladıq.

Hesab edirəm ki, dərsə gecikən tələbəyə mülayim formada deyilən bu irad öz müsbət nəticəsini verər və tələbələr bir daha dərsə gecikməzdilər.

İsa müəllim ikinci kursda bizə cinayət hüququnun xüsusi hissəsindən mühazirələr deyər və seminar məşğələlər aparardı. Seminar məşğələlərində İsa müəllim ayrı-ayrı tələbələrin cavablarından hiss edərdi ki, bu tələbənin cinayət hüququnun heç ümumi hissəsindən də anlayışı yoxdur və həmin tələbədən soruşardı:



- Ümumi hissədən neçə qiymət almısan?

Belə hallarda İsa müəllimin növbəti sualının nədən ibarət olmasını təsəvvür etməyən tələbə "Əla almışam, müəllim", - deyə şəstlə cavab verərdi.

İsa müəllim tələbənin biliyinin həqiqi səviyyəsi ilə aldığı qiymət arasında kəskin fərqin olmasını gördükdə sakitcə deyərdi:

- Bəs niyə etiraz etmirdin?!

Qəfil deyilmiş bu suala təbii ki, tələbə cavab verməz, pərt olar və auditoriyada bu qəbildən olan tələbələr də öz payını götürərdilər.

Böyük və mehriban insan olan İsa müəllimin şəxsiyyəti barədə oxucuda tam təsəvvür yaratmaq üçün bir neçə epizodu da qələmə almağı özümə mənəvi borc bildim.

İkinci kursun sonları idi. Cinayət hüququnun xüsusi hissəsindən tələbələrdən imtahan qəbul edirdi. Səhv etmirəmsə, dörd nəfər bilet çəkmiş və ayrı-ayrı stollarda oturub cavab verməyə hazırlaşırdılar. İsa müəllim də həmin tələbələri sakitcə müşahidə edirdi. Tələbə yoldaşımız Kamil bilet çəkib auditoriyadakı arxa partalardan birində oturub hazırlaşırdı. İsa müəllim hiss edir ki, Kamil hansı kitabdansa köçürür. Bunu görən İsa müəllim bir müddət Kamildən nəzərini çəkmir, lakin etika naminə ona heç bir söz demir. Ancaq tələbə yoldaşımız bundan nəticə çıxarmır və işinə davam edir. Tələbənin əvvəlki qayda ilə öz işində davam etməsini görən İsa müəllim deyir:

- Kamil (ad şərtidir-İ.A.) orada nə edirsən? Olmaya köçürürsən?

Kamil cavabında deyir:

- Xeyr, İsa müəllim, köçürmürəm, inanmırsınız gəlin axtarın.

İsa müəllim tələbə yoldaşımızın bu hərəkətinə qarşı yalnız onu deyir:

-Kamil, axtarışa prokurorun sanksiyası lazımdır (həmin dövrün qanunvericiliyinə əsasən şəxsin həbsi və axtarış kimi istintaq hərəkətləri prokurorun sanksiyası - razılığı əsasında aparılırdı - İ.A).

İsa müəllim tərəfindən incə yumorla Kamilin bu hərəkətinə qarşı deyilmiş iraddan nəticə çıxarmayan tələbə yoldaşımızın əvvəlki qayda ilə öz işini davam etdirdiyini görən hörmətli müəllimimiz ayağa durur və Kamilin oturduğu partaya yaxınlaşır. Bu zaman aydın olur ki, Kamil Cinayət Məcəlləsinin vərəqlərini cıraraq biletin cavablarının yazılmasında istifadə edir. Bunu görən İsa müəllim Cinayət Məcəlləsinin cırılmış vərəqələrini götürür və hamı görsün deyə əlini yuxarı qaldıraraq deyir:

- Kamil, sənin fənni bilməməyini bağışlayaram, lakin hüquqşünas tələbənin məcəlləni bu kökə salmasını bağışlamayacağam.

Həmin imtahanda tələbələrdən yalnız bir nəfərdən - Kamildən başqa hamıya İsa müəllim müsbət qiymət yazdı. Kamil isə həmin fənnin imtahanından qeyri-kafi qiyməti aldı. Kamilin bu imtahandan qeyri-kafi qiymət almasının yeganə səbəbi onun biletin suallarının cavablarını bilməməsi deyildi.

Professor İsa müəllim 1 sentyabr 1986-cı ildə dünyasını dəyişmişdir.

Allah Sizə rəhmət etsin, qəbriniz nurla dolsun, İsa müəllim!

**İlham Abbasov**